# Azərbaycan regionda sabitliyin və əməkdaşlığın əsas təminatçısıdır



Prezident İlham Əliyev Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi istiqamətindəki səylərinə görə 2026-cı il üzrə "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülüb. Dövlətimizin başçısının müəyyənləşdirdiyi strateji xətt ölkəmizin dayanıqlı inkişafı ilə yanaşı, regionda sülhün və sabitliyin bərqərar olmasını təmin edib. İnkişafının yeni mərhələsində inamla addımlayan Azərbaycan, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində ötən illər ərzində bütün istiqamətlərdə fundamental dəyişikliklərə, tarixi uğurlara imza atıb.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov qəzetimizə açıqlamasında bildirib ki, ölkəmizin güclü iqtisadi potensialı formalaşıb, müasir cəmiyyət quruculuğu istiqamətində mühüm nailiyyətlər əldə olunub, əhalinin rifahı əsaslı şəkildə yüksəlib, təhlükəsizlik və müasir ordu quruculuğu sahəsində mühüm nəticələr əldə edilib. Ölkəmizin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə yüksəlib, Azərbaycan regional və qlobal miqyasda strateji əhəmiyyətə malik etibarlı tərəfdaş kimi güclü mövqe qazanıb. "Möhtərəm Prezidentimizin müəyyənləşdirdiyi praqmatik və nəticəyönümlü siyasət nəticəsində ərazi bütövlüyünü və dövlət suverenliyini tam təmin edən Azərbaycan işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərini uğurla həyata keçirir. Böyük qayıdış prosesinin ardıcıl və təhlükəsiz şəkildə davam etdirilməsi nəticəsində bu gün 70 mindən çox insanın Qarabağ və Şərqi Zəngəzurda yaşayışı təmin olunub. İşğal dövründə dağıdılmış şəhər və kəndlərimiz ən müasir standartlara uyğun şəkildə bərpa olunur", - deyə deputat əlavə edib.

Komitə sədri qeyd edib ki, Azərbaycanda qabaqcıl elmə və yüksək texnologiyalara əsaslanan iqtisadiyyatın formalaşdırılması ölkə rəhbərinin müəyyənləşdirdiyi siyasətin prioritet istiqamətlərindəndir. Azərbaycanda yaradılan əlverişli investisiya mühiti dünyanın ən nüfuzlu şirkətlərinin ölkəmizə olan marağını daha da artırır. Azərbaycan Prezidentinin Davos İqtisadi Forumunda iştirakı çərçivəsində keçirilən görüşlər, aparılan müzakirələr bunun əyani təzahürüdür.

Deputat deyib ki, Prezident İlham Əliyev ölkəmizin gələcəyi olan gənclərimizin potensialından səmərəli istifadə olunmasını müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardan biri kimi müəyyənləşdirib: "Sağlam, vətənpərvər, savadlı gəncliyimizin formalaşması, gənc ailələrin sosial təminatının yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. Milli-mənəvi dəyərlərimizin qorunması, Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm məkanı kimi tanınması, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviqi istiqamətlərində mühüm addımlar atılır. Dövlətimizin başçısının rəhbərliyi ilə bu sahədə görülən işlər nəticəsində Azərbaycan müxtəlif mədəniyyətlərin formalaşdığı, dinlərin qarşılıqlı hörmət və əməkdaşlıq şəraitində yaşadığı nümunəvi ölkə kimi beynəlxalq aləmdə yüksək nüfuz qazanıb".

Ş.İsmayılov vurğulayıb ki, Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə yüksək uğurlara imza atan Azərbaycan bu gün regionun sabit və dayanıqlı inkişafının əsas təminatçısıdır. Azərbaycan Prezidentinin təşəbbüskarı olduğu sülh gündəliyi beynəlxalq birliyin tam dəstəyini qazanıb və bu gün regionumuzda sabitlik, əmin-amanlıq hökm sürür, yeni əməkdaşlıqlar, tərəfdaşlıqlar üçün geniş imkanlar açılır.

Komitə sədri qeyd edib ki, Azərbaycan Prezidentinin nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi də dövlət başçısının ölkəmizdə inkişafın təmin olunmasına, ədalət prinsiplərinə, beynəlxalq hüquqa, qarşılıqlı hörmətə əsaslanan müdrik siyasətinə, sülhün və sabitliyin təmin olunması, mədəniyyətlər və sivilizasiyalar arasında körpülərin qurulması istiqamətində gördüyü işlərə dünya birliyinin verdiyi yüksək qiymətin bariz təzahürüdür.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.-2026.- 30 yanvar (№18).- S.3.